# Qarabağ və Şərqi Zəngəzur: tarixi Zəfərdən genişmiqyaslı dirçəlişə

*2020-ci ilin payızında Ermənistanın təxribatları nəticəsində baş vermiş İkinci Qarabağ müharibəsi müasir Azərbaycan tarixində dönüş nöqtəsi olub.*

Şanlı 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının və dövlətinin iradəsini, əzmini və birliyini bütün dünyaya nümayiş etdirib. Ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə misilsiz qəhrəmanlıq göstərib, mərdliklə döyüşərək torpaqlarımızı azad edib. Xalq bu sınaqlı günlərdə öz liderinin və ordusunun ətrafında sıx birləşib, "dəmir yumruq"la düşmənə ağır zərbə vurub. Müharibə boyunca Azərbaycan Ordusu hər gün irəliləyib, Ermənistanın uzun illər boyunca möhkəmləndirdiyi müdafiə xətlərini yarıb keçib. Nəticədə 300-dən çox şəhər, qəsəbə və kənd işğaldan azad edilib. Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa uğrunda aparılan ağır döyüşlərdə düşmənə sarsıdıcı zərbələr endirilib. Bu ərazilər igid əsgər və zabitlərimiz tərəfindən azad edilib. 2020-ci il noyabrın 10-da imzalanmış Üçtərəfli Bəyanat nəticəsində Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan, dinc yolla geri qaytarılıb. Bu tarixi Qələbə yalnız torpaqlarımızın azad olunması ilə kifayətlənməyib, eyni zamanda regionda və daha geniş anlamda beynəlxalq müstəvidə yeni geosiyasi reallıqlar yaradıb.

Azərbaycan müharibədən sonra təkcə Cənubi Qafqazda deyil, qlobal miqyasda da söz sahibi olub. Rəsmi Bakı öz milli maraqlarını ardıcıl və qətiyyətlə müdafiə edib, qarşıya qoyduğu strateji hədəfləri sistemli şəkildə reallaşdırıb. Bu siyasi xəttin məntiqi davamı olaraq, 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilmiş lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın dövlət suverenliyi tam bərpa olunub. Xankəndi, Xocalı, Xocavənd, Əsgəran və digər ərazilərdə qanunsuz fəaliyyət göstərmiş separatçı rejim birdəfəlik ləğv edilib. Azərbaycanın daxili işlərinə müdaxilə edən, beynəlxalq hüquqa zidd olan "geosiyasi xərçəng" köklü şəkildə təmizlənib. Bununla da 30 ildən artıq davam edən separatizmə son qoyulub və Azərbaycan öz suveren ərazilərində tam nəzarəti bərpa edib. Yenidən yazılan müasir tariximizdə işğal günlərini bayramlar əvəz edib. 8 noyabr - Zəfər Günü, 20 sentyabr - Dövlət Suverenliyi Günü və azad edilmiş ərazilər üzrə şəhər günləri təntənəli şəkildə qeyd olunur.

Ötən 4 il yarım ərzində torpaqların işğaldan azad edilməsi qarşıya yeni çağırışlar qoyub. Erməni vandalizmi nəticəsində viran qoyulmuş cənnət məkanımız - Qarabağ və Şərqi Zəngəzur döyüş meydanından genişmiqyaslı yenidənqurma məkanına çevrilib. Bu ərazilərdə miqyasına görə dünyada bənzəri olmayan bərpa və dirçəliş işləri həyata keçirilir. Burada kəndlər və şəhərlər sıfırdan qurulur. Bu günə qədər səhiyyə ocaqları, təhsil müəssisələri, hava limanları, dəmir yolları və avtomobil magistralları inşa edilib və hazırda bu proses sürətlə davam etdirilir. Hər iki bölgədə "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji" konsepsiyasına uyğun layihələr həyata keçirilir. Tarixi-mədəni abidələrin bərpası da diqqət mərkəzindədir. Şəhərin öz əvvəlki mədəni siması bərpa edilir. Yuxarı Gövhər Ağa məscidi, Vaqifin məqbərəsi, Xurşidbanu Natəvanın evi və digər abidələr yenidən öz görkəminə və ruhuna qayıdır. Şuşada, Zəngilanda, Ağdamda və digər ərazilərdə beynəlxalq konfranslar keçirilir. Bura gələn əcnəbi qonaqlar erməni vəhşiliyini əyani görməklə yanaşı, eyni zamanda quruculuğun da şahidi olurlar. Qarabağ bölgəsində aparılan genişmiqyaslı bərpa və yenidənqurmanın əsas nümunələrindən biri uzunluğu 101 km olan Zəfər Yoludur. Bu yol qələbəyə aparan iradənin, milli birliyin və tarixi ədalətin təntənəsinin yoludur. Meqalayihə bölgənin iqtisadi, turizm və sosial inkişafı üçün strateji əhəmiyyət daşıyır. Zəfər Yolu bu gün Azərbaycan xalqının qürur mənbəyidir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən minlərlə keçmiş məcburi köçkün öz doğma yurduna qayıdıb. 2022-ci ildə Zəngilanın Ağalı kəndi ilə başlanan bu proses bu gün Ağdama, Xocalıya qədər genişlənib. Artıq Qarabağ və Şərqi Zəngəzurda 43 min nəfər əhali məskunlaşıb və çalışır. Bölgəyə həyat qayıdıb, bu torpağın sahibləri geri dönüb. Bərpa edilmiş şəhər və kəndlərin sayı isə 15-ə çatıb.

Ötən günlərdə daha bir kənd sakinlərinin ixtiyarına verirlib. Prezident İlham Əliyev mayın 27-də Laçın rayonunun Bəylik kəndinin açılışında iştirak edib. Qeyd edək ki, Bəylik 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdi. 2020-ci ildə İkinci Qarabağ müharibəsi sonunda imzalanan Üçtərəfli Bəyanata əsasən 1 dekabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçib. İndi tamamilə yenidən tikilən kəndə ümumilikdə 90 ailə - 360 nəfərin köçürülməsi nəzərdə tutulur. Ərazisi 29,6 hektar olan kənddə 91 fərdi ev inşa olunub. Evlərdən 13-ü iki, 50-si üç, 15-i dörd, 13-ü isə beşotaqlıdır. Bəylik kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr qurulub, kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Dövlət başçısı kəndə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib. Artıq rayonda Bəylik kəndi də daxil olmaqla dörd yaşayış məntəqəsi bərpa edilib: Laçın şəhəri, Zabux və Sus kəndləri.

İkinci Qarabağ müharibəsində Laçının işğaldan azad edilməsi hədəf olaraq qarşıya qoyulub. Laçının strateji mövqeyi həm coğrafi, həm də hərbi, iqtisadi və siyasi baxımdan olduqca vacibdir. Rayon uzun illər Ermənistanla Azərbaycanın Qarabağ bölgəsi arasında fiziki əlaqəni təmin edən əsas keçid olub. "Laçın dəhlizi" vasitəsilə 30 il ərzində Qarabağdakı erməni separatizmi silah-sursatla təmin olunub. Amma uğurlu siyasət nəticəsində bu dəhliz tarixə qovuşub. İndi region üçün aktual dəhliz "Zəngəzur dəhlizi" sayılır.

Qeyd edək ki, Laçın üçün ən əhəmiyyətli hadisələrdən biri burada hava limanının fəaliyyətə başlamasıdır. Dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən bu hava limanı regionun ən yüksək ərazisində tikilmiş hava limanı hesab olunur. Onun inşası mürəkkəb coğrafi şəraitdə, qısa müddətdə və müasir texnologiyalar əsasında həyata keçirilib. Laçın hava limanı Füzuli və Zəngilan hava limanlarından sonra işğaldan azad edilmiş ərazilərdə istifadəyə verilmiş üçüncü beynəlxalq aeroport olub və Azərbaycanın hava nəqliyyatı şəbəkəsini daha da gücləndirib.

**Musa BAĞIRLI,**
**"Respublika".**